**2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 125 saylı müraciət üzrə**

# RƏYİ

Bakı şəhəri 15 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsinin 19 saylı seçki məntəqəsində müşahidəçi qismində iştirak etmiş Mehrəliyev Vüsal Orucbala oğlu və 27 saylı seçki məntəqəsində müşahidəçi qismində iştirak etmiş Rəhmanova Həmidə Rza qızının səsvermə günü müşahidə apardıqları seçki məntəqələrində qanun pozuntularının baş verdiyinə, bu pozuntuların araşdırılması və səslərin yenidən hesablanmasına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) daxil olmuş 12 fevral 2020-ci il tarixli 125 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n  e t d i m:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112 və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə müvafiq dairə seçki komissiyasına göndərilməlidir. Belə ki, Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməlidir, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) isə Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112.2, 112-1.12-ci maddələrinə, Təlimatın 4.2 və 8.6-cı bəndlərinə uyğun olaraq müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduğundan həmin müraciətin araşdırılması üçün aidiyyəti üzrə 31 saylı Suraxanı ikinci seçki dairəsi dairə seçki komissiyasına göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 3-cü, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **r ə y ə  g ə l d i m :**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsinin 19 saylı seçki məntəqəsində müşahidəçi qismində iştirak etmiş Mehrəliyev Vüsal Orucbala oğlu və 27 saylı seçki məntəqəsində müşahidəçi qismində iştirak etmiş Rəhmanova Həmidə Rza qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il 125 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov